**МИНИСТЕРСТВО ОБРОЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

---

*На правах рукописи*

**АЗИМ АЛИ ОГЛУ АЛИЕВ**

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ ВЗАИМОДЕЙСТВИЯ ПРОЦЕССА ГЛОБАЛИЗАЦИИ С НАЦИОНАЛЬНЫМИ ОСОБЕННОСТЯМИ

6114.01-Социальная психология

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по психологии

**БАКУ - 2014**

**AZƏRBAYCAN RESPUBLIKASI TƏHSIL NAZIRLIYI**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

*Əlyazması hüququnda*

**ƏZİM ƏLİ OĞLU ƏLİYEV**

# QLOBALLAŞMA PROSESİNİN MİLLİ XÜSUSİYYƏTLƏRLƏ QARŞILIQLI TƏSİRİNİN SOSİAL-PSİXOLOJİ ƏSASLARI

6114.01 – Sosial psixologiya

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2014**

İş Azərbaycan Dillər Universitetinin Psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: psixologiya üzrə elmlər doktoru,
professor **Ramiz İbrahim oğlu Əliyev**

Rəsmi opponentlər: psixologiya üzrə elmlər doktoru
**İsfəndiyar Məmmədhüseyin oğlu Novruzlu**

psixologiya üzrə fəlsəfə doktoru,
dosent **Bayram Yusif oğlu Haqverdiyev**

Aparıcı təşkilat: **Bakı Slavyan Universitetinin**
**Pedaqogika və psixologiya kafedrası**

Müdafiə "_29__" "___05___" 2014-cü ildə saat "___" da Bakı Dövlət Universitetinin nəzdində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, II korpus, auditoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2014 - cü ildə göndərilib.

FD. 02.014 Dissertasiya şurasının elmi katibi — psixologiya üzrə fəlsəfə doktoru,
dosent **Rəşid Vəkil oğlu Cabbarov**

Сифариш № 863; тираж 100
«МБМ» няшриййатынын мятбяясиндя
чап олунмушдур

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Müasir dövrdə dünya siyasətində, ideoloji sistemdə, qarşılıqlı münasibətlər müstəvisində yeni bir istiqamətin- qloballaşmanın ortaya çıxması həyatımızın bütün sahələrində ciddi dəyişikliklər yaratdı. Qloballaşmanın güclənməsi bir tərəfdən cəmiyyətin həyatında sürətli inkişafı təmin etsə də, digər tərəfdən mədəni dəyərləri sıxışdırır, insanların qoruyub saxlamağa çalışdığı fərdi dünyanı, milli-mənəvi dəyərləri təhlükə altına alır. Bu proses özünün cəlbediciliyinə baxmayaraq insanlarda ambivalent hisslərin (biz və başqaları) güclənməsinə zəmin yaradır.

Qloballaşma, sadəcə olaraq müxtəlif dövlətlərin inteqrasiyasını deyil, həm də təhsil, mədəniyyət, iqtisadiyyat və düşüncə tərzinin yaxınlaşmasını da zəruri edir. Bu baxımdan qloballaşma elmi-texniki tərəqqinin, iqtisadiyyatın, sənayenin sürətli inkişafına şərait yaradır. Lakin inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələr arasındakı kəskin iqtisadi, siyasi, mədəni, sosial fərqlər artdıqca fundamentalizm, izolyasiyada qalmaq təhlükəsi də o qədər artır. Deməli, hər bir ölkənin daxili problemləri ilə bərabər qlobal, dünyanın taleyinə təsir edə biləcək problemlər də vardır ki, onların özbaşına buraxılması mümkünsüzdür. Bu problemlərin həllini isə böyük dövlətlər, nəhəng güclər öz üzərinə götürürlər. Əlbəttə, bu problemlər necə həll olunur, hansı maraqlar ödənilir - bu başqa məsələdir. Yaxın Şərqdə, Avropa ölkələrində baş verən hadisələr, onların həlli yolları dediklərimizə əyani nümunə ola bilər.

Qloballaşma ideoloji, iqtisadi, siyasi mahiyyət daşımaqla yanaşı, həm də psixoloji problemdir. Çünki istənilən halda qloballaşma və millilik ilk növbədə insan amili, insanın düşüncə tərzi ilə bağlıdır və baş verən bu proseslərin hər biri insan psixikasına ciddi təsir göstərir.

Aparılmış tədqiqatlar göstərir ki, son dövrlərdə sosioloq, psixoloq və filosoflar qloballaşma və milliliyi, onların qarşılıqlı əlaqəsini və bir-birinə təsirini araşdırmış, bu sahədə müəyyən işlər görülmüşdür. Lakin istər ayrı-ayrı elm sahələrində, istərəsə də bir elm daxilində bir-birindən fərqlənən, ziddiyyətli məqamlar özünü göstərməkdədir ki, bu da problemin aktuallığını ön plana gətirir.

Qloballaşma dövründə şəxsiyyətin və ayrı-ayrı fərdlərin dəyişməsi dedikdə iqtisadi, siyasi, ictimai, sosial və kulturoloji amillərin insanlara təsiri başa düşülür. Qloballaşma insanların iç dünyasından keçməlidir. Əks halda insanlar bu prosesə qoşulmur, ən azı öz laqeydlikləri ilə ona müqavimət göstərirlər. Bununla yanaşı, insanların yaşadığı, fəaliyyət göstərdiyi ictimai quruluş, ideoloji sistem onların təfəkküründə kök salır. Insanın həyata laqeyd münasibəti və identifikasiyasının itməsi onun xarici mühitin təsirinə adekvat

cavab verə bilməməsinə gətirib çıxarır. Bu baxımdan, qloballaşmanın təsiri ilə üzləşmiş Azərbaycan cəmiyyətində vəziyyətin necə olduğunu, nəsillərin, xüsusilə gənc nəslin müasir qloballaşmaya münasibətini öyrənmək, problemin həlli yollarını tapmaq hazırda aktual məsələyə çevrilmişdir. Bununla yanaşı qloballaşmanın milli mədəniyyətə təsirinin hansı istiqamətdə getdiyini bilmək və bunun əsasında təhsil siteminda islahatlar aparmaq və gələcəyi proqnozlaşdırmaq mümükündür. Bütün bunları nəzərə alıb "Qloballaşma prosesinin milli xüsusiyyətlərlə qarşılıqlı təsirinin sosial-psixoloji əsasları" mövzusunun tədqiqat obyekti kimi seçilməsini məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi.** Problemin öyrənilməsinin müasir vəziyyətinin təhlili göstərir ki, onun ümumnəzəri, mədəniyyətlərarası münasibətlər, milli xüsusiyyətlər, şəxsiyyətin formalaşması aspektinə həsr olunmuş müxtəlif təyinatlı tədqiqatlar aparılmışdır.

Qloballaşımanın ayrı-ayrı tərəfləri filosoflar, sosioloqlar (S.S.Xəlilov, M.Ə.Əliyev, Q.İ.Hüseynov, İ.A.Məmmədov, Y.A.Qranin, O.P.Koçneva və b.) və psixoloqlar (B.H.Əliyev, Ə.S. Bayramov, Ə.Ə.Əlizadə, S.İ.Seyidov, R.İ. Əliyev, Q.M.Andreyeva, L.Y.Qozman, A.L.Korjenko və b.) tərəfindən tədqiq edilmişdir.

Bununla yanaşı qloballaşmanın tədqiqinin zəruriliyi ilk növbədə sosial elmlərin başlıca mövzusu olmuşdur (O.Kont, M.Veber, E.Dürkheym və b.). E.Dürkheym hesab edir ki, cəmiyyətin bir vəziyyətdən digərinə keçməsinin mərhələləri qeyri-adiliklərlə müşayiət olunur. Ona görə də cəmiyyətin həyatının rasional başlanğıcının möhkəmlənməsi üçün dünya sivilizasiyasının inkişafı mühüm şərtdir.

Bir sıra tədqiqatçılar, o cümlədən, D.Skinner, Q.Ollport, R.Kettel, H.Ayzenk göstərirlər ki, zaman və şərait dəyişdikcə insanların özləri də dəyişir. Buna görə də inkişaf edən cəmiyyətlərdə onu idarə edən qanunlar da dəyişməlidir.

Problemə K.Q.Yunq "arxetiplər", A.Maslou ekzistensial-psixoloji mövqedən münasibət bildirmişlər. C.Kelli, R.Solso qloballaşma şəraitində şəxsiyyətin özünügerçəkləşdirməsinin koqnitiv, A.Bandura, C.Rotter isə sosial-koqnitiv istiqamətlərini araşdırmışlar.

Azərbaycanda da qloballaşma mövzusuna həsr olunmuş fəlsəfi, politoloji, sosioloji, psixoloji tədqiqatlar öz əhatəliliyinə görə fərqlənir. M.Əliyev qloballaşma dövründə konsensus nəzəriyyələrini, N.Mehdi kulturoloji çətinliklərin fəlsəfi mahiyyətini araşdırmışlar.

Azərbaycan psixoloqlarından B.H.Əliyev, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, S.İ.Seyidov, R.İ.Əliyev, L.Ş.Əmrahlı və başqalarının tədqiqatlarında etnik-psixoloji xüsusiyyətlər, siyasi və sosial hadisələrə qarşı milli dəyərlərin

davamlılığı, konservativliyi, eləcə də dəyişmə imkanları araşdırılır. Lakin olduqca paradiqmal səciyyə daşıyan problemin bütün aspektlərinin bu tədqiqatlarda öz əksini tapdığını söyləmək olmaz. Bu isə problemin müasir dövr üçün bir daha aktual olduğundan xəbər verir.

**Tədqiqatın obyekti** qloballaşmanın təzahür xüsusiyyətləri və istiqamətləridir.

**Tədqiqatın predmetini** qloballaşma prosesinin milli xüsusiyyətlərlə qarşılıqlı təsirinin sosial-psixoloji əsasları təşkil edir.

**Tədqiqatın məqsədi** qloballaşma prosesinin müasir vəziyyətini, onun mahiyyətini araşdırmaq, qloballaşma ilə milliliyin qarşılıqlı təsirini öyrənmək, qarşılıqlı münasibətlər və sosiomədəni həyatda baş verən dəyişiklikləri, gənclərin bu prosesə adaptasiyasının sosial-psixoloji cəhətlərini müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın fərziyyəsi**. Tədqiqatda belə bir fərziyyə əsas götürülmüşdür ki, qloballaşma şəraitində dövlətlər və xalqlar arasında iqtisadi, siyasi, ideoloji, mədəni, sosial münasibətlər dərinləşdikcə milli hisslərdə, milli şüurda, milli özünüdərkdə dəyişiklər baş verir, cəmiyyət qloballaşdıqca onun milli mədəniyyətlərə, xalqların həyatına, məişətinə təsiri artır. Bu isə şəxsiyyətin, millətin etnomədəni sferasında, qarşılıqlı münasibətlərində həm pozitiv, həm də neqativ nüanslar formalaşdırır.

**Tədqiqatın vəzifələri**. Tədqiqatın məqsədini həyata keçirmək üçün aşağıdakı vəzifələrin həlli zəruri hesab edilmişdir:

-Problemin mövcud vəziyyətinin araşdırılması və qloballaşmaya həsr olunmuş ədəbiyyatların təhlil edilməsi;

-Qloballaşmanın sosial-psixoloji mahiyyətinin aydınlaşdırılması;

-Qloballaşmanın müasir sosial-psixoloji məsələlərinin təhlil edilməsi;

-Qloballaşma prosesinin sosial-psixoloji xüsusiyyətləri və onun milli xüsusiyyətlərlə qarşılıqlı təsirinin müəyyənləşdirilməsi;

-Qloballaşma prosesi və etnomədəniyyət arasındakı əlaqə və asılılığın öyrənilməsi;

-Qloballaşma posesində mədəniyyətə təsir edən psixoloji komponentlərin ayırd edilməsi.

**Tədqiqatın metodoloji əsasları və metodları**. Tədqiqatın metodoloji əsasını koqnitiv yönümlü sosial-psixoloji nəzəriyyələr təşkil edir. Dissertasiyada Azərbaycan, yaxın və uzaq xarici ölkə psixoloqlarının qloballaşma prosesində baş verən dəyişikliklər, milli xüsusiyyətlərlə onun qarşılıqlı təsirinə dair irəli sürülmüş elmi-nəzəri müddəalara və sosial-psixoloji prinsiplərə istinad edilmişdir. Tədqiqatda müşahidə, müsahibə, anket sorğusundan istifadə olunmuşdur. Dissertasiyada 300 nəfəri əhatə edən 3

fərqli tələbə-gənclər qrupu iştrak etmişdir. Tədqiqatın mötəbərliyini təmin etmək üçün hər qrupdan eyni miqdarda (100 nəfər) tələbənin iştrakı təmin edilmişdir.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqat işində ilk dəfə olaraq müasir şəraitdə qloballaşma prosesi sosial-psixoloji aspektdə araşdırılmış, onun şəxsiyyətin formalaşmasına, sosiomədəni sahəyə, tələbə gənclərin dünyagörüşünə təsiri müəyyənləşdirilmişdir.

Ilk dəfə olaraq bu işdə:

- Qqloballaşma və milli xüsusiyyətlər arasındakı təsir və asılılığın pozitiv və neqativ tərəfləri psixoloji baxımdan öyrənilmiş, eləcə də, müasir dövrdə qlobal dəyişmələrin milli mədəniyyətlərə, milli hiss, milli şüur və milli özünüdərkə təsir dərəcəsi aydınlaşdırılmış;
- Tələbə-gənclər qloballaşmanın milli mədəniyyətə gətirdiyi yeniliklər sırasında görmək istədikləri dəyərlər aşkar edilmiş, mövcud problemlər içərisində təhsildə köklü islahatların aparılmasının, maarifçilik işinin yaxşılaşdırılmasının, təfəkkür tərzinin, insanların şüurunun və düşüncə tərzinin dəyişməsinin, milli-mənəvi dəyərlərin qorunmasının, uşaqlarımızın milli ruhda böyüdülməsinin dominantlıq təşkil etdiyi ayırd edilmişdir.

**Müdafiəyə təqdim olunan müddəalar:**

- Qloballaşma şəraitində şəxsiyyətin strukturunda baş verən dəyişmələrin bir qismi də təfəkkürlə bağlıdır. Dəyişən cəmiyyətlərdə təfəkkür tərzinin dəyişməsi koqnitiv əsaslar üzərində baş verir. Nəticədə yeni koqnitiv funksiyalar əmələ gəlir.
- Qloballaşma şəraitində insanın özünü şəxsiyyət kimi dərk etməsi bilavasitə milli mədəniyyətin inkişaf səviyyəsindən və dəyərlərin təzahür xüsusiyyətlərindən asılıdır. Lakin həmin prosesdə bir sıra problemlər də özünü göstərir: özünüdərketmənin tarixi-mədəni şərtləri, məsuliyyət hissi və mənəvi yönümlər; özünüqiymətləndirmə, ətrafdakı insanların qiymətləndirməsi və s.
- Gənc nəsil yaşlılardan fərqli olaraq moda, məişət şəraiti, fəaliyyət sahələri, informasiya texnologiyaları ilə bağlı yenilikləri qəbul edərək qloballaşma şəraitinə daha tez adaptasiya olunurlar. Lakin bununla belə, qloballaşmanın təsiri nəticəsində onlarda da milli xüsusiyyətləri qoruyub saxlamaq, soykökünə bağlılıq, milliliyi qoruyaraq inkişaf etdirmək tələbatı üstünlük təşkil edir.

**Tədqiqatın elmi-nəzəri əhəmiyyəti**. Tədqiqat müasir psixologiya, eləcə də sosial psixologiya elminə qloballaşmanın məzmunu, mahiyyəti, təzahür formaları, onun milli xüsusiyyətlərə təsiri baxımından zəngin materiallar verir. Dissertasiya işində Azərbaycan və xarici ölkə psixoloqlarının tədqiqat-

ları öyrənilmiş və milliliyin sosial-psixoloji əsasları göstərilmişdir. Bu baxımdan əldə olunmuş nəticələr qloballaşmanın tədqiqinin sosial-psixoloji əsaslarını yaratmağa imkan verir.

**Tədqiqatın praktik əhəmiyyəti.**Tədqiqatdan əldə edilmiş nəticələrdən ümumi və sosial psixologiya kurslarının məzmununun təkmilləşdirilməsində, seminar və xüsusi kurslarda tələbə və gənclərlə sosial-psixoloji treninqlərin keçirilməsində istifadə oluna bilər. Eləcə də dövlət qulluqçuları, təhsil işçiləri, elm adamları, bu sahədə tədqiqat aparan şəxslər nəzəri və praktik fəaliyyətində bu tədqiqata istinad edə bilərlər.

**Tədqiqatın aprobasiyası**. Tədqiqatdan alınan nəticələr Azərbaycan Dillər Universitetinin "Psixologiya" kafedrasının elmi seminarlarında, doktorant və dissertantların respublika və beynəlxalq səviyyəli elmi-praktik konfranslarında məruzə edilmişdir. Bununla yanaşı, dissertasiyanın əsas məzmunu, başlıca müddəaları, nəticə və tövsiyələri, bir neçə elmi məqalə, məruzə tezisləri şəklində çap olunmuş və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, onun məqsədi, vəzifələri, fərziyyəsi, metodoloji əsasları, tədqiqat metodları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə təqdim olunmuş müddəalar şərh olunur.

Dissertasiyanın **"Problemin ümumi məsələləri və ədəbiyyatda qoyuluşu"** adlanan I fəsli üç yarımfəsildən ibarətdir. Dissertasiyanın I fəslinin birinci yarımfəsli **"Qloballaşma, onun mahiyyəti və müasir sosial-psixoloji məsələləri"** adlanır. Burada qloballaşma anlayışı, onun psixoloji xüsusiyyətləri, bəşər tarixində qloballaşma mərhələləri, müasir qloballaşmanın özünəməxsus cəhətləri təhlil edilir. Bu yarımfəsildə qeyd olunur ki, hazırda insan problemləri ilə məşğul olan elmlər sistemində elə bir sahə yoxdur ki, qloballaşma və onun yaratdığı nəticələr haqqında tədqiqat aparılmasın. Hətta, müasir elm adamlarını ən çox düşündürən, çoxsaylı araşdırmalar predmetinə çevrilən problemin də qloballaşma olduğunu desək, yanılmarıq. Bununla belə, qloballaşma prosesinə dair vahid mövqenin olmaması problemin tədqiqini çətinləşdirir. Ona görə də müasir dövrün fenomenal hadisəsi sayılan qloballaşmanın əlamətlərini, xüsusiyyətlərini, səbəblərini və nəhayət, nəticələrini hərtərəfli tədqiq edərək onların izahını verməyə müxtəlif elm sahələrində, o cümlədən sosial psixologiyada ciddi ehtiyac duyulur.

Bunlarla yanaşı bu yarımfəsildə qloballaşmaya dair problemlər, prosesin iqtisadi, tarixi, siyasi, sosial, kulturoloji və psixoloji tərəfləri müqayisə edilir. Aydın olur ki, qloballaşma meyarların, dəyərlər sisteminin dinamik bir prosesi olduğu üçün həmin sahələr bir-birindən fərqlənir. Elə bu müxtəlifliyə görə qloballaşma anlayışının ən obyektiv izahına bu elmlərin nöqteyi-nəzərindən, lakin ayrı-ayrılıqda baxılır. Bu baxımdan insan psixikası, fərdiyyəti, şəxsiyyəti və münasibətləri sahələrindəki məsələlərlə məşğul olan psixologiya elmi qloballaşma problemini özünəməxsus şəkildə şərh edir.

Dissertasiyanın I fəslinin **"Problemin sosial-psixoloji ədəbiyyatda qoyuluşu"** adlanan ikinci yarımfəslində problemin nəzəri-tarixi məsələləri öyrənilir. Araşdırmalar (F.Fukuyama, M.Qülen, D.Held, M.Qrev, P.Lame, D.Verder, R.Brin, K.Tomson, K.Perraton) göstərir ki, qloballaşma yalnız bu günün deyil, tarixin müxtəlif mərhələlərində mədəniyyətlərin aktual problemlərindən biri olub. Belə ki, N.Gəncəvi, N.Tusi, İ.Nəsimi və b. öz dövründə yetişən nəsildə milli əxlaqın, milli şüurun formalaşdırılması ilə yanaşı bəşəri mədəniyyətin inkişafına da mühüm məsələ kimi yanaşmışlar.

Bu yarımfəsildə göstərilmişdir ki, XX əsrin əvvəllərindən başlayaraq sosial elmlərdə bu dövrə qədər milli mədəniyyətlərlə qəbul edilməyən məsələlər: "genetik hafizə" (İ.Sikorski), "xalqların psixologiyası" (V.Vundt), "arxetip" (K.Q.Yunq), "etnik şüur" (E.Erikson, C.Mid, E.Fromm), "şüuraltı" (Z.Freyd) və digər anlayışlar öyrənilmiş, elm tərəfindən qəbul olunmuşdur.

E.Fromm göstərirdi ki, "insanlar bütün həyatı boyu öz soy-köklərinə tələbat hissi ilə yaşayırlar". Q.Ollport, R.Kettel, H.Ayzenk, D.Skinner zaman, şərait dəyişdikcə insanların özlərinin də dəyişdiyini bildirirlər. A.Adler, K.Q.Yunq, K.Levin bu baxımdan dinamik inkişafın nəticələrini onun istiqamətinə, əhatəsinə görə müəyyənləşdirməyi məqsədəuyğun hesab edirlər.

Qloballaşmanın təsiri ilə insanın sosial davranışı, təhsilə, özünüinkişafa münasibəti sosial psixologiya və sosial pedaqogikada öyrənilir. Q.M.Andreyeva həmin məsələlərlə bağlı sosial-psixoloji, P.Vekker və A.Baskov müasir sosioloji nəzəriyyələr, A.Q.Asmolov variativ təhsildə konflikt paradiqmasından tolerantlıq paradiqmasına keçid, H.Ə.Əlizadə sosial pedaqogikanın aktual məsələləri, E.A.Bayer və V.P.Borisenkov qloballaşma erasında sosial iş və sosial pedaqogika, L.V.Kolpina şəxsiyyətin sosial sağlamlığı aspektində təhlil aparırlar. V.N.Stergin və L.N.Qürbətova sosial təhlükəsizliyi tələbələrin özünü sosial baxımdan rahat hiss etmələri üçün mühüm amil kimi qiymətləndirir.

Bütün bunlar tədqiqatda qloballaşmanın doğura biləcəyi həyati reallıqlar kimi diqqət mərkəzinə gətirilir. Ona görə də cəmiyyətin bu reallıqlara

alışması üçün təhsilin vəzifələri göstərilir. Bildirilir ki, müasir təhsil öz qarşısına gəncliyə elmi-texniki biliklər vermək, praktik vərdişlər aşılamaqla yanaşı, özünümüdafiə və özünügerçəkləşdirmə yollarını da öyrətməlidir.

Dissertasiyanın I fəslinin **"Qloballaşma şəraitində etnomədəniyyətə təsir göstərən psixoloji amillər"** adlanan üçüncü yarımfəslində qeyd olunur ki, qloballaşmanın təsiri ilə baş verən dəyişilmələr cəmiyyəti öz ardınca yeniləşməyə aparır. Ənənəvi cəmiyyətdə mənəvi mədəniyyətin təmsilçiləri özünün dəyər-motivasiya strukturunu dəyişməyə məcbur olurlar. Bu dəyişmə etnik xüsusiyyətlər zəncirindəki bəzi həlqələrın (milli stereotiplərin, adət-ənənələrin) qeyri-müəyyənliyi, sıxışdırılması, nəhayət, aşınması, öz təmsilçilərinin mənimsədikləri yeni dəyərlərin transformasiyası, yaxud yeni dəyərlər sisteminin sərhəddinin genişlənməsi ilə müşayiət olunur. Bu deyilənləri həm cəmiyyətin inkişafı, həm də ayrı-ayrı fərdlərin sosial proseslərə, həyatın reallıqlarına münasibəti fonunda psixoloji baxımdan təhlil etdikdə, qloballaşma və milliliyin qarşılıqlı təsiri meydana çıxır.

Dissertasiyanın **"Qloballaşma və milli xüsusiyyətlərin qarşılıqlı təsiri"** adlanan II fəsli də üç yarımfəsildən ibarətdir. Dissertasiyanın II fəslinin **"Qloballaşma prosesində şəxsiyyət və sosiomədəni dəyişmələrin sosial-psixoloji məsələləri"** adlanan birinci yarımfəsilində qloballaşmanın şəxsiyyətin formalaşmasına, cəmiyyətdə gedən prosesi milliliyin qorunması və inkişaf etdirilməsinin fundamental sosial-psixoloji problemləri öyrənilir.

Qloballaşmanın ilkin və aparıcı mənbələrindən biri mədəniyyət amilidir. Hər bir ölkədə qloballaşma bu ölkənin mədəni mühitinə müvafiq qaydada baş verir. Yaxud əksinə, ölkələrin özünəməxsus xüsusiyyətləri, onların mədəni mənsubiyyəti qloballaşmaya, onun keyfiyyətinə və dinamikasına təsir edir. Hazırda, xüsusilə kapitalizmin istehlak formalarının inkişafında, mətbuat sahəsində, o cümlədən televiziya proqramlarında gənclər arasında musiqi zövqü, geyim dəbi bəşəriləşir. Amerikanın təsiri ilə bir sıra Asiya, Afrika və Avropa ölkələrinin istehsal və istehlak bazarında oxşarlıqlar yaranmaqdadır. XX əsrdə Amerika mədəniyyətinin Avropaya gətirilməsi tarixinə nəzər salsaq, onun sadə adamlarına məxsus mədəniyyətinin simasında qloballaşmaının gedişini izləyə bilərik.

Tədqiqatda bu sahədə daha dolğun məlumatlar əldə etmək üçün 300 nəfəri əhatə edən 3 fərqli tələbə-gənclər qrupu müəyyənləşdirilmişdir. Bu məqsədlə xarici universitetlərdə təhsil alan tələbələr (XT), Azərbaycan Dillər Universiteti (DT) və Azərbaycan Müəllimlər İnstitutunun (MT) III və IV kurs tələbələrindən ibarət tədqiqat qrupları yaradılmışdır. İlkin mərhələdə qruplarla anket sorğular keçirilmiş, söhbətlər aparılmışdır. Hər qrupda 100 nəfər iştirak etmişdir. Verilmiş cavablar qruplar üzrə ayrılıqda təhlil olunmuşdur.

"Qloballaşma Sizin üçün nədir?" sualına respodentlərin 33% qloballaşmaya dünyada gedən proseslərin təbii davamı kimi baxırlar, 28% qloballaşmanın tarix boyu dünyada baş verən siyasi, iqtisadi, ictimai inkişafın növbəti mərhələsi kimi qiymətləndirilənlər, 9% tələbə düşünür ki, qloballaşma tarix boyu görünməmiş, sıçrayışla baş verən irimiqyaslı dəyişmədir. Qloballaşmaya XX əsrdə baş verən elmi-texniki inkişafın yeni mərhələsi kimi yanaşanlar 16%, insanların həyatını çətinləşdirən, həyat tərzini dəyişməyə məcbur edən gözlənilməz "fəlakət" kimi yanaşanlar 14% təşkil edir.

"Özünüzü dünyada gedən qlobal dəyişmələrə hazır hesab edirsinizmi?" sualına gənclərin 37 % özünü qloballaşmaya qismən hazır hesab edir, 29 % düşünür ki, onlar qloballaşma prosesinə əsasən hazırdırlar, 21% özünü tam hazır hesab edir. Rəyi soruşulanların 7% özünü hazır hesab etmir, 6% həyatından razıdır və heç nəyi dəyişməyi düşünmür.

"Qloballaşma şəraitində milli dəyərlərin yeniləşməsinə necə baxırsınız?" sualına 25% yeniləşməni labüd sayır, 40% milli-mənəvi dəyərlərin deyil, həyat tərzini, məişət şəraitini dəyişməyin, 35% qloballaşmaya hazır olmaq üçün əsas milli xüsusiyyətləri qorumaqla bir sıra lazımsız dəyərlərdən imtinanı düşünür.

"Mənsub olduğunuz millətin mədəniyyətini dünya ölkələrinin mədəniyyəti ilə müqayisədə necə qiymətləndirirsiniz?" sualına cavab olaraq 45% Azərbaycan mədəniyyəti qədim və zəngin mədəniyyətə malikdir, ondan çox şey öyrənmək olar - mövqeyinə üstünlük verirlər, yalnız 4% düşünür ki, Azərbaycan mədəniyyəti dünyanın ən yüksək mədəniyyətidir, 28% bir çox dəyərlərimizi qorumaqla dünya mədəniyyətindən çox şey götürməli olduğumuzu bildirirlər, 17% hesab edir ki, iqtisadiyyatımıza görə inkişaf etmiş ölkələrdən geri qalsaq da, milli mədəniyyətimizə görə heç də geridə deyilik. Tələbələrin yalnız 6% "imkanım olsaydı ümumiyyətlə, Azərbaycandan gedərdim" istəyini ifadə edirlər.

"Qloballaşmanın təsiri ilə milli dəyərlərin aşınmasına necə baxırsınız?" sualına respondentlərin 65% hesab edir ki, öz dəyərlərimizdən xeyli uzaqlaşmışıq, ciddi və təxirəsalınmaz tədbirlər görülməli, mənəvi tərbiyə işi aktuallaşmalıdır, 2% konservativ mövqe tutaraq milli dəyərlərin dəyişməsinə mənfi yanaşır, 18% övladlarını milli ruhda tərbiyə edəcəyini bildirir. Iştrakçıların 15% hesab edir ki, Azərbaycan mədəniyyəti o qədər zəngindir ki, heç zaman bitib tükənməz.

Sorğunun nəticəsi göstərir ki, tələbə gənclərin qloballaşmaya münasibəti pozitivdir. Əksəriyyətin qənaəti belədir ki, milli mədəniyyət qorunmalı, milliliyi ifadə edən ən mühüm xüsusiyyətlər saxlanılmalı, yeni mədəniyyətdə ifadə olunmalıdır.

Dissertasiyanın II fəslinin **“Qloballaşma prosesinin qarşılıqlı münasibətlərə təsiri”** adlanan ikinci yarımfəslində qloballaşma dövründə şəxsiyyətin strukturunda daha çox dəyişməyə məruz qalan münasibətlər problemi öyrənilmişdir. Belə ki, qloballaşan cəmiyyətdə ictimai, iqtisadi, siyasi və digər amillərin təsiri ilə aparıcı proseslərin dəyişməsi nəticəsində yaranan yeni münasibət tipi bir insan qrupunun başqa insan qrupu ilə münasibətində dəyişiklik yaradır. Burada qruplararası münasibətlərin tənzmlənməsindəki ənənəvi meyarlar yeniləri ilə əvəz olunaraq, bütövlükdə hüquqi-iqtisadi-mənəvi baxımdan tənzimlənir. Belə yenidənqurulma prosesi psixoloji gərginliklərlə, konfliktlərlə, qarşıdurmalarla müşayiət olunur. Təşkilatların, qrupların idarə edilməsində yeni metodların, məsələn, iqtisadi yeniliklərin tətbiqi zamanı ləngidici amillər ortaya çıxır. Qloballaşma dövründə tələbələrin qarşılıqlı münasibətlərinin spesifik xüsusiyyətlərini aydınlaşdırmaq üçün bu məsələni diqqət mərkəzində saxlamaq lazım gəlir.

Bu məsələlərlə bağlı olaraq tələbə gənclər arasında anket sorğusu keçirilmişdir. Anket sorğusunda 2 sual qoyulmuşdur. Birinci sualda tələbələrin beynəlxalq münasibətlərə hazırlığı müəyyənləşdirilimişdir. Burada həmçinin onların ixtisas baxımından mütəxəssis kimi formalaşması, peşəkar əməkdaşlıq haqqındakı rəyləri də ümumiləşdirilmişdir.

“İxtisasınız üzrə özünüzü Amerika, Avropa səviyyəsində hazırlıqlı mütəxəssiz hesab edirsinizmi”- sualına tələbələrin 20% özünü bu münasibətlərə tam hazır, 33% əsasən hazır, 24% qismən hazır olduqlarını hesab edirlər. On altı faizi özünü hazır hesab etmir, 7% isə ümumiyyətlə xarici dilləri yaxşı bilmir, müasir texnologiyalardan səmərəli istifadə edə bilmədiyini etiraf edir.

Əgər biz birinci üç variant üzrə nəticələri, yəni beynəlxalq əməkdaşlığa tam, əsasən və qismən hazır olanları bir qrupda cəmləşdirsək o halda tələbələrin 77 % qloballaşmaya hazır hesab etmək olar. Rəyi soruşulanların 23% tələbə, ya konservativ düşüncəyə malikdir, ya öz mədəniyyətini, həyat tərzini dəyişmək istəmir, ya da çətin sosial şəraitdə yaşayır, bu baxımdan da özünü inkişaf etdirmək üçün bunu maneə kimi qəbul edir.

Anket sorğusundakı ikinci suala - “Qloballaşmanın yaratdığı yeniliklərdən biri də qarşılıqlı münasibətlərlə bağlıdır. Siz bu sahədə çətinliklərlə üzləşmirsiniz ki?” cavab olaraq tələbələrin 43% bildirir ki, “Özümü yeniliklərə hazırlayıram, ümid edirəm ki, çətinliyim olmayacaq”, 32% bildirir ki, bu sahədə heç bir çətinliyi yoxdur, xarici dili bilir, dialoq, əməkdaşlıq, ünsiyyət mədəniyyətinə yiyələnib. Tələbələrin 10% xarici dili yaxşı bilməyin vacib olmadığını, ixtisası yaxşı öyrənməklə kifayətlənməyi düşünür. Rəyi soruşulanların 9% qarşılıqlı münasibətlərdə heç bir çətinliyinin olmaması qənaətindədir. Onlar hesab edirlər ki, əksinə, başqaları

mədəniyyəti bizdən öyrənməlidirlər. "Mən Azərbaycanlıyam, başqa dil öyrənməyə, başqalarının xoşuna gəlməyə məcbur deyiləm" fikrinə üstünlük verənlər 6% təşkil edir.

Tədqiqat qrupları üzrə cavabların ümumləşdirilməsi

Cədvəl 2.1

| Suallar üzrə variantlar | Xaricdə təhsil alan tələbə qrupu 100 nəfər | ADU-da təhsil alan tələbə qrupu 100 nəfər | AMİ-də təhsil alan tələbə qrupu 100 nəfər | Cəmi rəqəmlə | Cəmi faizlə |
|---|---|---|---|---|---|
| 1-ci sual | | | | | |
| A | 40 | 5 | 15 | 60 | 20 % |
| B | 25 | 45 | 29 | 99 | 33 % |
| C | 20 | 17 | 33 | 70 | 24 % |
| D | 12 | 23 | 13 | 48 | 16 % |
| E | 3 | 10 | 10 | 23 | 7 % |
| 2-ci sual | | | | | |
| A | 42 | 18 | 37 | 97 | 32 % |
| B | 33 | 48 | 47 | 128 | 43 % |
| C | 11 | 19 | 0 | 30 | 10 % |
| D | 4 | 0 | 14 | 18 | 6 % |
| E | 10 | 15 | 2 | 27 | 9 % |

Beləliklə, aparılan tədqiqatdan aydın olur ki, qloballaşmanın mahiyyəti, onun istər ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə insan münasibətlərinə gətirdiyi yeniliklər, dəyişmələr tələbə gənclər tərəfindən dərk olunur və obyektiv qiymətləndirilir. Bunun üçün nələrə hazır olmağın, hansı sahələrdə bilik və bacarıqlar əldə etməyin lazım gəldiyini bilirlər. Bununla yanaşı, müsbət haldır ki, onlar milliliyin qorunub saxlanılması fikrini təqdir edirlər. Eyni zamanda, onlar özlərinin davranış üslubu, ünsiyyət tərzi və bir sıra şəxsiyyət göstəricilərini bu keçid dövrü mədəniyyətinə uyğunlaşdırmağa, millətə xas olan dəyərli xüsusiyyətləri qarşılıqlı münasibətlərdə inkişaf etdirməyə səy göstərirlər.

Dissertasiyanın II fəslinin **"Qloballaşma prosesində milli xüsusiyyətlərin nəzərə alınmasını zəruri edən amillər"** adlanan üçüncü yarımfəslində milli mənsubiyyəti insanın mənsub olduğu ailə, təhsil və professional hazırlıq səviyyəsi, siyasi görüşlər və siyasi fəallıq, həmyaşıdlara verilən tələblərə uyğunluq, insanın öz vətəninə görə keçirdiyi qürur hissi, şəxsi, sosial və kollektiv eyniliklərlə əlaqələndirilir.

Aparılan anket sorğusundan adın olur ki, xaricdə, eləcə də ADU və AMİ-

də təhsil alan tələbə gənclərin milli xüsusiyyətləri dəyərləndirmələri fərqlidir. Eyni zamanda, məlum olur ki, hər üç qrupun gəncləri birinci beş yerdə millət üçün səciyyəvi olan və qloballaşma dövründə itirilmə təhlükəsi ilə üzləşən milli xüsusiyyətləri qeyd edirlər. Bu isə o deməkdir ki, həmin xüsusiyyətlərin qorunub saxlanılması bütövlükdə millətin varlığının qorunub saxlanılmasıdır. Digər tərəfdən, bu xüsusiyyətlər tələbələrin gələcək həyatının, yaşayışının təminatçısı olmaqla təhlükəsizlik, əmin-amanlıq tələbatını ödəmək üçün vacibdir. Bununla bağlı keçirilən anket-sorğuda tələbələrin milli xüsusiyyətlərə münasibəti aydınlaşdırılmışdır (cədvəl 2.2).

XT, DT və MT qruplarında müsbət qiymətləndirilən
milli xüsusiyyətlərin müqayisəli göstəriciləri

Cədvəl 2.2

| s.s. | Xaricdə təhsil alan tələbə qrupu 100 nəfər | ADU-da təhsil alan tələbə qrupu 100 nəfər | AMİ-də təhsil alan tələbə qrupu 100 nəfər |
|---|---|---|---|
| 1. | Torpağa bağlılıq | Torpağa bağlılıq | Torpağa bağlılıq |
| 2. | Böyüyə hörmət | Çörəyə hörmət | Ailəyə bağlılıq |
| 3. | Ailəyə bağlılıq | Ailəyə bağlılıq | Böyüyə hörmət |
| 4. | Kökə bağlılıq | Böyüyə hörmət | Kökə bağlılıq |
| 5. | Mərdlik | Kökə bağlılıq | Mərdlik |
| 6. | Kişi sözü | Mərdlik | Çörəyə hörmət |
| 7. | Nəsillər arasında anlaşma | Kiçiyə qayğı | Kişi sözü |
| 8. | Qadına hörmət | Kişi sözü | Qadına hörmət |
| 9. | Kiçiyə qayğı | Qadına hörmət | İstiqanlılıq |
| 10. | Çörəyə hörmət | Nəsillər arasında anlaşma | Kiçiyə qayğı |
| 11. | Sadəlik | İstiqanlılıq | Nəsillər arasında anlaşma |
| 12. | İstiqanlılıq | Sadəlik | Sadəlik |
| 13. | Qonaqpərvərlik | Qonaqpərvərlik | Qonaqpərvərlik |

Sorğunun nəticələrinə görə sonuncu 5 yerdə duran milli xüsusiyyətlərə münasibət fərqlidir. Həmin xüsusiyyətlər əsasən şəxsiyyətlərarası münasibətləri və şəxsiyyət keyfiyyətlərini səciyyələndirdiyindən, respondentlər onları tam olaraq milli xüsusiyyətlər kimi qəbul etmirlər: kiçiyə qayğı, qadına hörmət, istiqanlılıq, nəsillər arasında anlaşma, sadəlik və s.

"Milli xüsusiyyətlərimizdə Sizi qane etməyən cəhətlər hansılardır?"- sualına respondentlərin cavabları daha çox olandan daha az qeyd edilənlərə

doğru yerləşdirilmişdir: öz iradəsinin əksinə hərəkət etmək; qarşılıqlı hörmətin itməsi, sadəlövhlük; unutqanlıq, yeniliyi qəbul etməmək; qadın və kişi münasibətlərində ayrı-seçkilik, qadınların hüquqlarının tapdalanması; haqqını tələb edə bilməmək; yalan, qeybətçilik, lovğalıq, şöhrətpərəstlik, yerlibazlıq, biganəlik; hamıya (uşağa, qadına, kişiyə) eyni gözlə baxılmaması; "sayanın quluyuq, saymayanın ağası" tipli yanaşma tərzi; ailədə oğlan və qız uşaqlarına fərq qoyulması; fikir azadlığının olmaması, paxıllıq; toy və yas mərasimlərində israfçılıq, milli dəyərlərin itirilməsi; hədsiz qapalılıq, öz fikrimizlə hərəkət etməməyimiz.

"Qloballaşmanın hansı cəhətləri Sizi qane etmir?"- sualına verilmiş cavabları aşağıdakı kimi qruplaşdırılır: mədəniyyətimizə mənfi təsir göstərir, milli-mənəvi dəyərlər itir, kökümüzdən uzaqlaşırıq – 47%; Qərb və ABŞ bu ad altında öz ideologiyasını təbliğ edir, cəmiyyət Qərbin zərərli təsirlərinə məruz qalır - 22%; təhsilə zəif təsir göstərir - 21%; hərtərəfli qane edir – 10%.

Göründüyü kimi, hazırda tələbə gənclərdə qloballaşmaya davamlı, açıq, pozitiv münasibətin formalaşması üçün onlarda ictimai əxlaqın, mənlik şüurunun ən yüksək göstəricisi kimi vətəndaşlıq məsuliyyəti və vətənpərvərlik hissinin inkişafı vacibdir. Özünün şəxsi və ictimai vəzifəsini, borcunu dərk etmək mənlik şüuru ilə ictimai şüurun vəhdətindən yaranır. Gənclər artıq bilirlər ki, vətənpərvər olmaq özünü, soykökünü, yaşadığı torpağın dəyərini, xalqın tarixini bilməklə, qiymətləndirməklə bitmir. Bu dəyərlərin qorunmasına onların hər biri cavabdehdir

Aparılmış təhlillərə əsaslanaraq bunları qeyd etmək olar ki, psixologiyada qloballaşma və millilik arasındakı əlaqəyə şüur və mühit arasındakı əlaqə kontekstində baxılır. İnsanı əhatə edən mühitdə fasiləsiz olaraq baş verən yeni hadisələr haqqındakı informasiyalar qavrayışın vasitəsilə psixikaya ötürülür və yadda saxlanılaraq yeni, daha mükəmməl biliklərə çevrilir. Deməli, şüuru dəyişmək üçün faktları yeniləşdirmək lazımdır.

Psixoloji, sosial-psixoloji, fəlsəfi ədəbiyyatın təhlilinə, eləcə də apardığımız tədqiqata əsaslanaraq aşağıdakı **nəticələrə** gəlmək mümkündür:

- Qloballaşma prosesi, onun təsiri, mahiyyəti ilə bağlı filosoflar, psixoloqlar, sosioloqlar və iqtisadçılar kifayət qədər tədqiqat aparsalar da, bu günədək hamının qəbul etdiyi vahid bir mövqeyə gələ bilməmişlər. Bu, bir tərəfdən hər bir elm sahəsinin predmetinin fərqli olmasından, digər tərəfdən də prosesə hansı nöqteyi-nəzərdən yanaşılmasından asılıdır.
- Müəyyənləşdirilmişdir ki, qloballaşma yalnız ictimai-tariixi proseslərdən, ideoloji, siyasi, iqtisadi münasibətlərdən asılı olmayıb, həm də elmi-texniki inkişafın nəticəsi kimi meydana çıxmışdır. Ona görə də müasir dövrdə beynəlxalq əlaqələr, iqtisadi, siyasi, mədəni əlaqələr elə bir həddə

çatıb ki, indi nəinki qloballaşmadan qaçmaq mümkün deyil, həm də zərərlidir.

- Elm, texnika, informasiya vasitələri elə bir yüksək inkişaf həddinə çatmışdır ki, onların vasitəsilə istənilən ölkənin daxili işlərinə asanlıqla təsir etmək mümkündür. Deməli, qloballaşma prosesindən kənarda qalmaq yox, ona doğru getmək lazımdır. Lakin burda başlıca şərt kimi öz milli xüsusiyyətlərini, milli dəyərlərini, milli mədəniyyəti qoruyub saxlamaq, inkişaf etdirmək çıxış edir. Bunun üçün həm öz milli mədəniyyətini təbliğ, təqdim etmək, həm də digər xalqların milli xüsusiyyətlərini öyrənmək zərurəti yaranır.

- İnkişaf etmiş və inkişaf etməkdə olan dövlətlərin inteqrasiyası, qloballaşma prosesi kifayət qədər mürəkkəb, həm də müəyyən qədər təhlükəli prosesdir. Belə mürəkkəb bir prosesin içərisində xalqın öz milli varlığını, mədəniyyətini itirmək təhlükəsi də var. Deməli, bu prosesdə milliliklə qloballaşmanın qarşılıqlı təsirini nəzərdən qaçırmaq olmaz.

- Araşdırmalar nəticəsində hətta Qərbi Avropa və ABŞ tədqiqatçılarının özlərinin də etiraf etdiyi kimi, güclü dövlətlər bir çox hallarda qloballaşmadan öz xeyirlərinə birtərəfli qaydada istifadə etməyə çalışırlar. İnsan hüquq və azadlıqlarının qorunması adı altında hər hansı bir dövlətə təzyiq göstərirlər. Digər hallarda isə milli mentalitet və ya dövlətçiliyin qorunması adı altında insan hüquq və azadlıqlarının pozulmasına göz yumurlar.

- Qloballaşma və millik arasında əlaqənin öyrənilməsi cəmiyyətlər arasındakı sərhədlərin silinməsini, mədəni diffuziya prosesini gücləndirir. Bu istiqamətdə cəmiyyətlər özlərində vahid düşüncə tərzi formalaşdırmalı olurlar.

- Tədqiqat göstərir ki, qloballaşmanın dərinləşdiyi bir mərhələdə insanların psixoloji problemlərinin daha da artması ilə bağlı bəzi faktlar da özünü göstərir. Çünki müasir qloballaşmanın özü ilə bərabər insanların yaşayışı üçün yeni çətinliklər yaradır. Ona görə də sivilizasiyanın insan psixikasına təsirinin nəticələrinin proqnozlaşdırılması sosial psixologiyanın problemləri içərisində mühüm yer tutur.

-Tədqiqatdan aydın olur ki, qloballaşmanın mahiyyəti, onun istər ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə insan münasibətlərinə gətirdiyi yeniliklər, dəyişmələr tələbə gənclər tərəfindən dərk olunur və obyektiv qiymətləndirilir.

Dissertasiyanın əsas məzmunu **müəllifin** aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:

1. Qloballaşma və onun sosial-psixoloji əsasları //Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri, Bakı, 2007, № 4, s.327-332

2. Qloballaşma və milli xüsusiyyətlərin qarşılıqlı təsirinin sosial-psixoloji əsasları // Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri, Bakı, 2008, №5, s.327-331

3. Qloballaşma və onun sosial-psixoloji mahiyyəti / Mədəniyyətlərarası dialoq. Beynəlxalq Elmi Konfransın Materialları. Bakı: 2010, s.17-18

4. Психологические особенности этнокультурных изменений в процессе глобализации //Вестник Казахский Гуманитарно-Юридический Университет, Астана, 2011, № 12, с. 57-62

5. Qloballaşma prosesində şəxsiyyətin inkişafının sosial-psixoloji məsələləri // Bakı Slavyan Universitetinin Elmi əsərlər, Bakı, 2011, № 2, s.19-25.

6. Qloballaşma şəraitində tələbə-gənclərin qarşılıqlı münasibətlərinin psixoloji problemləri // Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri, Bakı, 2011, № 2, s.359-364.

7. Qloballaşma prosesində milli dəyərlərin qorunub saxlanılmasının sosial-psixoloji əsasları / Azərbaycan Dillər Universiteti. IV Respublika Elmi Konfransıının tezisləri. Bakı: 2011, s.27-28.

8. Qloballaşma: pozitiv və neqativ tərəfləri / Respublika Elmi Konfransıının tezisləri. Naxçıvan Dövlət Universiteti, AR Təhsil Problemləri İnsititutu, Naxçıvan Müəllimlər İnstitutu. Naxçıvan: 2011, s.43-44.

9. Qloballaşma prosesində təhsil siyasəti / Azərbaycan Dillər Universiteti. Universitetlərarası dialoq: auditoriyanın idarə olunması, qiymətləndirmə, şəffaflıq. Respublika elmi-praktik konfransının materialları. Bakı: 2011, s.45-47.

10. Социально-психологические особенности изменений национальных культур в процессе глобализации // Вектор Науки, Тольятти, 2012, №1(8), с.25-28.

11. Qloballaşma şəraitində etnomədəni dəyişikliklərin psixoloji əsasları // Psixologiya jurnalı, Bakı, 2012, №1, s.12-21.

**Азим Али оглы Алиев**

## Социально-психологические основы взаимодействия процесса глобализации с национальными особенностями

## РЕЗЮМЕ

Диссертационная работа посвящена одной из актуальных проблем - социально-психологическим основам взаимодействия процесса глобализации с национальными особенностями.

Работа состоит из введения, двух глав, шести параграфов, заключения и перечня использованной литературы.

Во **введении** обосновывается актуальность темы исследования, анализируется степень изученности проблемы, определяются цели и задачи исследования, методы и методология, раскрывается научная новизна, излагаются теоретическая и практическая значимость, гипотеза, пред-ставляются положения, выносимые на защиту.

Глава первая, которая называется **«Общие аспекты проблемы и их постоновка в литературе»**, охватывает глобализацию, ее суть, исследование современных социально-психологических проблем, а также рассматривает и анализирует понятие глобализации, ее психологические характеристики, этапы и своеобразные черты глобализации в современном мире. В то же время анализуруется, обобщается, а также выражается отношение к трудам зарубежных, русских и азербайджанских психологов.

Одной из главных проблем исследовательских работ являются психологические факторы, которые влияют на этнокультуру в условиях глобализации. Проблема также рассматривается с культурологической точки зрения. Изучается и выражается отношение к глобализации, национальности и их общее влияние на культуру в целом.

Глава вторая, которая называется **«Взаимное влияние глобализации и национальных особенностей»,** исследует личность и социокультурныеизменения в социально-психологических проблемахв процессе глобализации, а также влияниена отдельные личности и социальныегруппы, формирование личности в процессе глобализации. В исследовательской работе изучается сохранение и защита национальностей студентов и их развитие, а также фундаментальное решение социально-психологических проблем.

Диссертационная работа анализирует влияние процесса глобализации на взаимоотношения, необходимые факторы учета национальных особенностей при глобализации, семья, которой принадлежит личность, образование и уровень профессиональной подготовки, политические взгляды и активность, соответствие требованиям молодежи, чувство гордости по отношению к своей стране, личное социальное и коллективное соответствие.

В **заключительной** части диссертации обобщены результаты исследовательской работы. Работа имеет важное научно-теоретическое, а также практическое значение, т.к. полученные данные и выводы могут быть использованы в образовании, а также в лекциях по возрастной и социальной психологии.

**Azim Ali oglu Aliyev**

**"Socio-psychological basics of interaction of globalization process with national peculiarities"**

**SUMMARY**

The dissertation is devoted to one of the matters of urgentinterest where socio-psychological bases of the interaction of the globalization process with the national peculiarities are toyched upon.

The dissertation consists of the introduction, two chapters, six paragraphs, conclusion and the table of contents.

The introduction provides the grounds for the actuality of the research theme, the analysis of the degree of the case study; it defines the aims and objectives of the research, methods and methodology; reveals the scientific novelty of the work, theoretical and practical significance, hypotheses; the provisions for the defense are set forward.

Globalization, its essence and modern socio-psychological issues are studied and the notion of globalization, its psychological features, levels and the peculiarities are analyzed in the first chapter called **"General Matters of the Problem and Its Use in the Literature"**. Besides, the works of foreign, Russian and Azerbaijani psychologists on the problem are analyzed, summarized and the attitudes to the provisions contained in these works are expressed.

In the study psychological factors influencing ethnic culture under the condition of globalization are deemed as priority issues. The problem is also approached to from the cultural point of view. Globalization, nationality and the impact of their unity on the culture are studied and the ways the problem is approached are considered.

In the second chapter **"Reciprocal Impact of Globalization and Nationality"** socio-psychological matters of personal and socio-psychological changes in the globalization process are studied, the impacts of globalization on the personality formation, social groups, as well as various individuals, the fundamental socio-psychological problems of the preservation and development of nationality among the students are analyzed

In this thesis the influence of the globalization processon mutual relations, the specific factors considered while dealing with national peculiarities issues, the family a person belongsto education and the level of professional training, political views, political activity, conformity of the requirements applied to the young people, the pride one feels of his Motherland, personal, social and collective equality are analyzed.

The conclusion of the dissertation contains the generalised results of the research work. The paper has on important scientific theoretical and practical significance, as the data obtained can be used in education, as well as in the course of lectures on age-specific and social psychology.